

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 58 (20.959)

3 aprel 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Necdet Özelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi-texniki sahədə uğurla inkişaf etdiyi vurğulandı, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Necdet Özelin ölkəmizə səfərinin bu sahədə əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Avstriya parlamentinin ikinci prezidenti Karlhaynts Kopfun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

* * *

Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Bakı layihə əlaqələndiricisi Aleksis Şaxtaxtinskini qəbul etmişdir.

## Ordubad bələdiyyələri üçün seminar-müşavirə



*Ordubad Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə “Bələdiyyələrin fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunması” mövzusunda seminar-müşavirə keçirilib.*

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq rayonda bələdiyyələrin fəaliyyəti üçün göstərilən dövlət qayğısından danışıb, bu qayğının müqabilində bələdiyyələrin işində nöqsanların olmasının yolverilməz olduğunu bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək qeyd edib ki, nazirlik tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəli təsiri istiqamətində işlər mütəmadi davam etdirilir. Ötən dövr ərzində Ordubad rayonu üzrə hüquqi maarifləndirmə tədbirləri olaraq, 14 dəfə seminar-müşavirə keçirilib. Bu cür seminar-müşavirələrin əsas məqsədi bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsindən, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın təmin edilməsindən, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasından ibarət olub.

Bildirilib ki, Ordubad rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 17 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib. Lakin seminar-müşavirələr, yoxlamalar, əməli köməkliklər zamanı edilən tövsiyə və təkliflərə baxmayaraq, bu gün rayon üzrə bələdiyyələrin bir neçəsinin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Təəssüflər olsun ki, verilmiş tövsiyə və tapşırıqlardan sonra bələdiyyələrdə hansı işlərin görülməsini müşahidə etmək üçün təkrar olaraq yenidən bələdiyyələrdə araşdırmalar aparılarkən müəyyən olur ki, əməkdaşlarımız tərəfindən görülən işlər olduğu kimi hərəkətsiz saxlanılıb və heç bir iş davam etdirilmədən nöqsanlar aradan qaldırılmayıb.

Qeyd edilib ki, ümumilikdə, bələdiyyələrin yerli əhalinin maraqlarını təmin etmək və bu sahədə səmərəli işləmələri üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb. Məhz bu diqqət və qayğının müqabilində bələdiyyələr üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər. Hər bir bələdiyyə qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun təşkil etməlidir.

Sonda bələdiyyələri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Culfa Rayon Prokurorluğu dağ kəndində maarifləndirici tədbir keçirib

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov “İcbari və könüllü sığortanın əhəmiyyəti” mövzusunda çıxış edib. Daşınmaz əmlakın icbari sığortası, sığorta hadisələri və sığorta müqavilələri haqqında kənd sakinlərinə ətraflı məlumat verən Əli Adıgözəlov qeyd edib ki, sığorta formasının təşkili və həyata keçirilməsi istiqamətində bu gün ölkəmizdə bir sıra nailiyyətlər əldə edilib. Sığorta sistemi, sadə dildə desək, əhalinin sosial müdafiəsi üçün nəzərdə tutulub və onun əsas məqsədi müəyyən səbəblərdən (qanunla nəzərdə tutulmuş hallarda) sığortaolunanlara dəymiş maddi ziyanın kompensasiya edilməsidir. Ölkəmizdə sığorta iki formada – icbari və könüllü əsasda həyata keçirilir. İcbari sığorta, adından da göründüyü kimi, məcburi aparılır və o, əsasən, riskli işlərdə çalışanlara, müqavilə əsasında əmək fəaliyyəti ilə məşğul olan şəxslərə şamil edilir.

Rayon prokurorunun köməkçisi, ikinci dərəcəli hüquqşünas Xalid Ağayev “Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən uşaqların hüquqları” mövzusunda çıxış edərək qeyd edib ki, hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından yararlanmaq, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla onlarla birgə yaşamaq hüququna malikdir. Uşaq eyni zamanda öz valideyinləri tərəfindən tərbiyə edilmək, maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna da malikdir.

Xalid Ağayev uşaqlara ad və soyadların verilməsi, uşaqlara qoyulan adların dəyişdirilməsi qaydalarından da ətraflı danışıb.

Sonda kənd sakinlərini maraqlandıran suallar cavablandırılıb.

## Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində “Muxtariyyət ili”nə həsr olunmuş elmi konfrans



Dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində “Muxtariyyət ili”nə həsr olunmuş konfrans keçirilmişdir. Konfransı səhiyyə naziri Niyazi Novruzov açaraq çoxəsrlik dövlətçilik ənənələri olan bu diyarda Naxçıvan Muxtar Respublikasının yaradılmasını Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi kimi dəyərləndirmiş, 2014-cü ilin Naxçıvan Muxtar Respublikasında “Muxtariyyət ili” elan edildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan səhiyyəsinin 90 illiyi muxtariyyətin tarixi ilə üst-üstə düşdüyündən hər bir səhiyyə işçisi üçün ikiqat bayramdır. Bununla yanaşı, səhiyyənin inkişaf tarixi həm də Naxçıvan tarixinin vacib bir hissəsidir. “Muxtariyyət ili”ndə bu tarixi öyrənmək bütün ziyalılar üçün, həm də tibbi ictimaiyyət üçün müəyyən əhəmiyyət kəsb edir.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev naxçıvanlı təbib Əkmələddin Naxçıvani ilə bağlı tədqiqatları barədə məlumat vermiş, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı Bəhruz Məmmədovun “Çar Rusiyası dövründə Naxçıvan səhiyyəsi”, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Hüseyn Əsgərovun “Muxtariyyətdən öncəki Naxçıvan səhiyyəsi “Molla Nəsrəddin” jurnalında”, Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərovun “Muxtariyyətin ilk illərində Naxçıvan səhiyyəsi” mövzularında məruzələri dinlənilmişdir.

Tədbirdə muxtar respublikanın səhiyyə işçiləri ilə yanaşı, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Tibb Kollecinin tələbə və müəllimləri iştirak etmişlər.

## Uzunoba Su Anbarında yenidənqurma işləri uğurla davam etdirilir



*Naxçıvan Muxtar Respublikasında yeni hidrotexniki qurğuların tikilməsi və mövcud qurğularda yenidənqurma işlərinin aparılması diqqət mərkəzində saxlanılır. Həyata keçirilən tədbirlər nəticəsində regionda içməli və təsərrüfat suyuna olan tələbatın ödənilməsi istiqamətində müsbət nəticələr əldə olunub. Təkcə 2013-cü ildə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, 4 nasos stansiyası, 3 subartezian quyusu, 11 kəhriz istifadəyə verilib.*

Görülən işlərin davamı olaraq, ötən əsrin 60-cı illərindən istismar olunan Uzunoba Su Anbarının 2013-cü ilin oktyabr ayından yenidən qurulmasına başlanılıb. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılan təmir və yenidənqurma işləri uğurla davam etdirilir. İş icraçısı Nemət Əhmədovun verdiyi məlumata görə, su anbarı bəndinin uzunluğu 1868 metr, hündürlüyü isə 17,7 metrdir. Anbarda yeni su keçidi qurulub, sahil xətti boyunca hündürlüyü 1 metr olan mühafizə divarının və yamac hissələrdə beton örtüyünün salınması işləri davam etdirilir. Sahil xətti boyunca dəmir dayaqlar üzərində 3 ədəd çay evinin (kafeteriya) qurulmasına da başlanılıb. Bundan əlavə, su anbarının çimərlik üçün nəzərdə tutulmuş ərazisində 240 nəfərlik restoran və çay evi binasının tikintisi aparılır. Eyni zamanda ərazidə istirahət guşələri və çimərlik, həmçinin su idman oyunları ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaqdır. Ümumi tutumu 8 milyon kubmetr olan su anbarının yenidən qurulmasında, əsasən, yerli tikinti materiallarından istifadə olunur, təhlükəsizlik qaydalarına ciddi əməl edilir.

Həyata keçirilən tədbirlər su anbarının istismar müddətini artırmaqla yanaşı, ərazidə şoranlaşmanın qarşısını alacaq və yeni torpaq sahələri əkin dövriyyəsinə daxil ediləcəkdir. Eyni zamanda burada yaradılmış şərait muxtar respublika sakinlərinin və qonaqların istirahətinin səmərəli təşkilində mühüm rol oynayacaqdır.

## Növbəti əmək yarmarkası

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, dünən keçirilən əmək yarmarkasının ünvanı Kəngərli rayonu olub.

Tədbirdə mərkəzin direktoru Məzahir Rüstəmovun, rayon İcra Hakimiyyəti başçısının müavini Nazim Canbaxşıyevin, işaxtaran vətəndaş Ayşən İsmayılovanın çıxışları olub. Yarmarkada 10 müəssisədən 64 boş iş yeri təqdim edilib, 32 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Şahbuz rayonunda keçiriləcək.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası – 90*

# Muxtariyyət illərində Naxçıvanda Konstitusiya qəbulu tarixindən

***Naxçıvanın muxtariyyət statusu bu diyarın 90 illik tarixi dövründə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında xüsusi rol oynamışdır. 90 illik tarixi dövrdə muxtariyyətin möhkəm siyasi və hüquqi bazası formalaşmış, Naxçıvan böyük bir inkişaf yolu keçmişdir.***

Naxçıvanın muxtariyyət statusunun əsası 1921-ci il 16 mart tarixli Moskva müqaviləsi ilə qoyulmuş, 1921-ci il 13 oktyabr tarixli Qars beynəlxalq müqaviləsi ilə həmin status daha da möhkəmləndirilmişdir. Belə ki, sözügedən müqavilələrlə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğu, onun heç bir zaman digər ölkəyə verilməyəcəyi təsdiq edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Lakin qeyd olunmalıdır ki, Moskva və Qars müqavilələri ilə Naxçıvana muxtariyyət statusu verilsə də, onun Azərbaycan SSR-in tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevral ayına kimi uzadılmışdır. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq olunmuş, bununla da, qədim diyarın statusu qəti şəkildə müəyyənləşdirilmişdir.

Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsində ötən illər ərzində qəbul olunmuş konstitusiyaların əhəmiyyəti xüsusi vurğulanmalıdır. 1926, 1937, 1978 və 1998-ci illərdə qəbul edilmiş konstitusiyaların hər biri Naxçıvanın muxtariyyət statusuna aid normaları özündə ehtiva etmiş, muxtar ərazi statusunun möhkəmləndirilməsində mühüm əhəmiyyətə malik olmuşdur.

Hər şeydən əvvəl qeyd edək ki, Naxçıvanın Konstitusiyasının işlənib hazırlanması onun muxtar respublika kimi formalaşması zərurətindən qaynaqlanmışdır. Bu baxımdan Naxçıvan MSSR-in ilk Konstitusiyası 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayı tərəfindən qəbul edilmişdir. 4 bölmədən və 62 maddədən ibarət olan bu konstitusiyaya görə, Naxçıvan MSSR ərazisində ali hakimiyyət orqanı hər min seçicidən bir deputat hesabı ilə seçilən Naxçıvan Sovetlər Qurultayı idi. Qurultaylararası müddətdə onun səlahiyyətlərini qurultay tərəfindən 50 üzv və 20 namizəddən ibarət heyətdə seçilən Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi həyata keçirirdi. Lakin Konstitusiyanın 10-cu maddəsinə əsasən, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi (MİK) Naxçıvan Sovetlər Qurultayından fərqli olaraq ali qanunverici, sərəncamverici və nəzarətedici orqan idi.

Naxçıvan Sovetlər Qurultayının və MİK-in səlahiyyətinə Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq, Naxçıvan MSSR Konstitusiyasına dəyişikliklər və əlavələr etmək, muxtar respublikanın ərazisinin ümumi inzibati bölgüsünü aparmaq, büdcəyə baxmaq və onu qəbul etmək, Xalq Komissarları Soveti (XKS) heyətinin hamısını bütünlüklə və ya ayrı-ayrı hökumət üzvlərini təyin və azad etmək məsələləri daxil idi.

Konstitusiyanın 4-cü bölməsində (maddə 61-62) Naxçıvan MSSR-də Azərbaycan SSR-in gerb və bayrağından istifadə edilməsi, Naxçıvan MSSR-in paytaxtının isə Arazüstü Naxçıvan şəhəri olması təsbit edilmişdir.

1936-cı ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunanda bütün müttəfiq və muxtar respublikalar öz konstitusiyalarını ona uyğunlaşdırmaq məcburiyyətində qaldılar. X Fövqəladə Ümumnaxçıvan Sovetlər Qurultayı 18 sentyabr 1937-ci ildə Naxçıvan MSSR-in ikinci Konstitusiyasını qəbul etdi. 7 aprel 1941-ci il tarixli qanunla Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilən bu Konstitusiya Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası əsasında hazırlanaraq onun əsas prinsiplərini özündə əks etdirməklə, 11 fəsil və 115 maddədən ibarət idi. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasında Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibinə muxtariyyət hüquqlarında daxil olan sosialist dövləti elan edilmişdir.

1977-ci ildə qəbul edilən SSRİ Konstitusiyası muxtar respublika konstitusiyalarını təsdiq etmək hüququnu yenidən Naxçıvanın özünə verdi. IX çağırış Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar 8-ci sessiyası 30 may 1978-ci ildə SSRİ və Azərbaycan SSR konstitusiyaları ilə onlara verilmiş hüquqlardan istifadə edərək Naxçıvan MSSR-in üçüncü Konstitusiyasını qəbul etdi. 10 bölmə, 16 fəsil, 163 maddədən ibarət olan bu Konstitusiyanın hüquqi əsasını SSRİ Konstitusiyasının 18-ci və Azərbaycan SSR Konstitusiyasının 8-ci fəsilləri təşkil edirdi.

Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının səlahiyyətlərinə Konstitusiyanı qəbul etmək və onda dəyişikliklər aparmaq, Konstitusiyaya əməl olunmasına nəzarət etmək, Naxçıvan MSSR qanunvericiliyini, dövlət asayişini, vətəndaşların hüquq və azadlıqlarını qorumaq, sosial-iqtisadi, xalq maarifi, mədəniyyət və elm təşkilatları və idarələrinin, səhiyyə, bədən tərbiyəsi, sosial təminat və sair sahələrin inkişafını təmin etmək, respublika əhəmiyyətli digər məsələləri həll etmək daxil idi.

1978-ci il Naxçıvan MSSR Konstitusiyasının 92-ci maddəsinə görə, Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanı 5 il müddətinə seçilən 110 nəfərlik deputat korpusu ilə təmsil olunan Naxçıvan MSSR Ali Soveti idi. Qanunlar Naxçıvan MSSR Ali Soveti tərəfindən qəbul edilirdi və bütün muxtar respublika ərazisində məcburi hüquqi qüvvəyə malik idi. Muxtar respublikanın ali hakimiyyət orqanının ildə 2 dəfə növbəti sessiyası keçirilirdi. Növbədənkənar sessiyalar Ali Sovetin Rəyasət Heyətinin təşəbbüsü və ya deputatların üçdə bir hissəsinin tələbi ilə çağırılırdı.

Naxçıvan MSSR-in ali icraedici və sərəncam orqanı Naxçıvan MSSR Nazirlər Soveti olub, muxtar respublikanın səlahiyyətinə aid edilən bütün idarəetmə məsələlərini həyata keçirirdi. Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti qarşısında məsul idi və ona hesabat verirdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik lider lazım idi. Dahi rəhbər Heydər Əliyevin Naxçıvana gəlişi, burada fəal siyasətə başlaması xalqın gələcəyə ümidini özünə qaytarmış, Naxçıvanı Azərbaycanın ərazi bütövlüyü və istiqlaliyyəti uğrunda apardığı mübarizənin mərkəzinə çevirmişdir. Ümummilli lider Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrdə, eləcə də Azərbaycan Respublikasının Prezidenti olduğu illərdə Naxçıvanın muxtariyyət statusunun möhkəmlənməsi, həmçinin bir çox sahələrdə olduğu kimi, konstitusiya yaradıcılığı istiqamətində də əhəmiyyətli işlər görülmüşdür.

1990-1993-cü illərdə Naxçıvanda qəbul olunmuş bir sıra konstitusiya qanunları təkcə muxtar respublikanın deyil, bütövlükdə Azərbaycan dövlətinin də gələcək taleyinin müəyyən edilməsində həlledici rol oynamışdır. Belə ki, 1990-cı ilin noyabr ayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən 12-ci çağırış Naxçıvan MSSR Ali Sovetinin ilk sessiyasında tarixi qərarlar qəbul olunaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı Naxçıvan Muxtar Respublikası, Naxçıvan MSSR Ali Sovetinin adı isə dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli bayraq bərpa olunaraq Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilmişdir.

11 yanvar 1991-ci il tarixdə ulu öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırmışdır.

1991-ci ilin mart ayında SSRİ-nin saxlanılması ilə əlaqədar referendum keçiriləndə isə Naxçıvan konstitusiya hüquqlarından istifadə edərək öz ərazisində referendum keçirmədi. Cəsarətlə atılmış bu strateji əhəmiyyətli addımlar muxtar respublikanı əhatə edən təhlükələrdən, bu qədim diyarı erməni işğalından, beynəlxalq müqavilələrlə təsbit edilmiş muxtariyyət statusunu isə ləğv olunmaq təhlükəsindən xilas etdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında 1992-ci il yanvarın 31-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir. Muxtar respublikanın yeni Konstitusiyası qəbul edilənə qədər onun dövlət quruluşu, siyasi, iqtisadi və sosial həyatı bu qanunla tənzimlənməli idi. Qanuna görə, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində beynəlxalq muxtar ərazi statusuna malik demokratik dövlət, demokratik quruluşun və qanunun aliliyinin təminatçısı isə hakimiyyətin mənbəyi olan xalq elan edilirdi. Bu qanunla ilk dəfə demokratik göstəricilərdən biri olan "hakimiyyətlərin bölgüsü" prinsipi qəbul edilirdi.

Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli Konstitusiyasının qəbulu Naxçıvan Muxtar Respublikasında yeni Konstitusiyanın qəbulunu zəruri etmişdir. Belə ki, həmin Konstitusiyada "Naxçıvan Muxtar Respublikası" başlıqlı VIII fəsil nəzərdə tutulmuş, həmin fəsil daxilindəki 134-cü maddədə muxtar respublikanın Azərbaycan Respublikasının tərkibində muxtar dövlət olması təsbit edilmiş, bütün bunlar isə muxtar respublikanın Əsas Qanununun qəbul edilməsini şərtləndirmişdir. Nəticədə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 23 dekabr 1995-ci il tarixli 16-1 saylı qərarı ilə muxtar respublikada yeni Konstitusiya layihəsi hazırlayan komissiya yaradılmışdır.




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sədrliyi ilə bu komissiyanın, onun işçi qrupunun tərkibinə təcrübəli mütəxəssislər, alimlər və ekspertlər daxil edilmişdir.

Komissiya Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiya layihəsini hazırlayaraq ulu öndər Heydər Əliyevin sədri olduğu yeni Konstitusiya layihəsi hazırlayan komissiyaya təqdim etmişdir. Muxtar respublikanın yeni Konstitusiya layihəsi Azərbaycan Respublikası Konstitusiya layihəsini hazırlayan komissiyada 4 dəfə müzakirə olunmuşdur.

Bu Konstitusiya əvvəlkilərdən həm formasına, həm də məzmununa görə əsaslı şəkildə fərqlənir. Təkcə bir faktı demək kifayətdir ki, ilkin variantda təklif olunan 12 fəsil, 146 maddə son variantda daha yığcamlaşdırılaraq 6 fəsil, 50 maddə olmuş, nəticədə isə konstitusiya daha dolğun və daha bitkin bir hüquqi sənədə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birbaşa rəhbərliyi altında və onun gərgin əməyi sayəsində hazırlanmış sözügedən Konstitusiya layihəsi ingilis və fransız dillərinə tərcümə olunaraq rəy verilməsi üçün beynəlxalq təşkilatlara – Avropa Şurasına, Qanun Vasitəsilə Demokratiya Uğrunda Avropa Komissiyasına, Fransanın Dövlət Administrasiyasının Beynəlxalq İnstitutuna və bir sıra digər təşkilatlara təqdim olunmuş, beynəlxalq ekspertlərin ümumiləşdirilmiş rəyinə görə, layihə demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat verməklə demokratik dövlətin siyasi və hüquqi təşkili prinsiplərinə uyğun hesab edilmişdir.

Layihənin son variantı Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri ulu öndər Heydər Əliyevin 12 aprel 1998-ci il tarixli məktubu ilə müzakirə edilmək üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə göndərilmişdir. Bu layihə 15 aprel 1998-ci il tarixdə "Şərq qapısı" qəzetində dərc edilərək ictimaiyyətin müzakirəsinə təqdim olunmuşdur. Komissiyanın 23 aprel 1998-ci il tarixli iclasında layihə daxil olan təkliflərlə birlikdə müzakirə edilmiş və qəbul edilmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının müzakirəsinə təqdim olunması qərara alınmışdır. 28 aprel 1998-ci il tarixdə təqdim olunan layihə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul edilmiş, Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsinə uyğun olaraq, iki dəfə – 30 iyun və 29 dekabr 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Konstitusiya qanunu ilə təsdiq edilərək dövlət başçısı tərəfindən imzalanmışdır.

Muxtar respublikanın yeni Konstitusiyası demokratik tələblərə cavab verməklə Naxçıvanın muxtariyyətinin hüquqi əsaslarını özündə birbaşa əks etdirmişdir. Bu Konstitusiya sayca dördüncü Konstitusiya olmaqla yanaşı, Naxçıvanın müstəqil Azərbaycanın tərkibində, sovet ideologiyasından kənar qəbul edilmiş ilk milli Konstitusiyasıdır.

Konstitusiyanın 1-ci maddəsinə əsasən, Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Qeyd edək ki, muxtariyyətinin 90 ili ərzində Naxçıvan heç zaman belə yüksək statusa malik olmamışdır.

Konstitusiyaya görə, Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının yuxarı icra orqanı olub, qanunverici orqan – Ali Məclis tərəfindən təşkil edilir, ona tabedir və onun qarşısında müntəzəm hesabat verir.

Naxçıvan Muxtar Respublikasının qüvvədə olan Konstitusiyası əvvəlki dövrlərdə qəbul edilmiş konstitusiyalardan fərqli olaraq, yeni bir institut – "Ali vəzifəli şəxs" institutunu nəzərdə tutur. Belə ki, Konstitusiyanın 5-ci maddəsinə görə, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Ali vəzifəli şəxs həm qanunvericilik, həm icra hakimiyyəti sahələrində Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərə malikdir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasıdır. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsi olub, ona uyğundur. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, Naxçıvan Muxtar Respublikasının qanunları, Ali vəzifəli şəxsinin fərmanları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarından ibarətdir.

Müasir dövrdə hüququn inkişafı demokratik islahatların aparılmasını zərurətə çevirmiş və bu zərurətdən qaynaqlanaraq ötən illər ərzində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilmişdir.

21 oktyabr 2005-ci il tarixli Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilmiş əlavə və dəyişikliklə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin həll etdiyi məsələlərin dairəsi genişləndirilmiş, 30 dekabr 2005-ci il və 2 oktyabr 2006-cı il tarixli Konstitusiya qanunları ilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasına edilmiş əlavələr və dəyişikliklər əsasında İnsan Hüquqları üzrə Müvəkkilin seçilməsi qaydası müəyyənləşdirilmiş, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında 30 sentyabr 2010-cu il tarixli Konstitusiya Qanunu ilə Ali vəzifəli şəxsin səlahiyyətləri artırılmış, qanunvericilik təşəbbüsü hüququ subyektləri sırasına Naxçıvan Muxtar Respublikasının Prokurorluğu əlavə edilmiş, məhkəmə hakimiyyətinin fəaliyyəti təkmilləşdirilmiş, 15 noyabr 2011-ci il tarixli muxtar respublikanın Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin, eləcə də ümumi və ixtisaslaşdırılmış məhkəmələrin hakimlərinin təyin edilməsi proseduru dəqiqləşdirilmişdir.

***Dediklərimizi yekunlaşdıraraq, belə nəticəyə gəlmək olar ki, Naxçıvanın muxtariyyət dövründə müxtəlif illərdə qəbul edilmiş konstitusiyaları muxtar ərazi statusunun möhkəmləndirilməsinə, sabit dövlət quruculuğunun genişləndirilməsinə, idarəçiliyin təkmilləşdirilməsinə, vəzifə və səlahiyyətlərin bölgüsü sahəsində demokratik prinsiplərdən istifadə edilməsinə, muxtar dövlət statusunun möhkəmləndirilməsinə xidmət etməklə konstitusiya quruculuğunun mühüm tarixi sənədləri olmuşdur.***

**Sənan QARAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi*

# Naxçıvanda gənclərin mükəmməl ali təhsil almalarına daim diqqət və qayğı göstərilir

*Gələcəyimiz savadlı, dünyagörüşlü, hərtərəfli biliyə malik gənclərin əlində olacaqdır*

***Ölkəmizdə təhsil sahəsində islahatlara 1999-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunduqdan sonra başlanılmışdır. Həmin proqrama uyğun ali təhsildə də struktur dəyişiklikləri aparılmış, təhsil müəssisələrinə müstəqillik və geniş səlahiyyətlər verilmiş, bir sıra ali məktəblər öz fəaliyyətlərini özünüidarəetmə prinsipi əsasında qurmuşdur.***



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 22 may tarixli Sərəncamı ilə "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət proqramının əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabətqabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılması idi. Proqramın icrası uğurla başa çatdırılmışdır.

Ötən günlərdə Naxçıvan Müəllimlər İnstitutunda olmağımızın da əsas səbəbi muxtar respublikada ali təhsilin inkişafı istiqamətində aparılan işləri, qazanılan uğurları konkret bir təhsil ocağının timsalında oxuculara çatdırmaq idi.

İnstitutun baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru, Xarici əlaqələr şöbəsinin müdiri Həsənəli Eyvazlı bizimlə söhbətində bildirdi ki, maarifləndirici tədbirlərin nəticəsi olaraq təlim texnologiyalarına əsaslı surətdə yiyələnməyə çalışan tələbələrimiz həm də internet vasitəsi ilə dünya gənclərinin forum və simpozium çağırışlarına qatılır, dəvətlər alır və Azərbaycanımızı, o cümlədən doğma Naxçıvanımızı uğurla təmsil edirlər. Xarici ölkələrin universitet tələbələri cərgəsində öz sözlərini deyən, institutumuza başucalığı gətirən belə tələbələrimizdən olmuş Murad Məmmədov və Yaqut Rəhimovanın adlarını fəxrlə çəkə bilərik. Onlar beynəlxalq tələbə yarışlarına qatılmış və uğurlu nəticələr əldə etmişlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli ilə söhbət zamanı qeyd etdi ki, rektoru olduğu ali təhsil ocağı möhkəm milli bünövrəyə malik olan, dövlətçilik təmayüllü, müasir ali təhsil ocağıdır. İnstitut ilə Azərbaycanda fəaliyyət göstərən Azərbaycan Müəllimlər İnstitutu, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu və qardaş Türkiyə Respublikasının Qars şəhərindəki Qafqaz Universiteti, eyni zamanda Şimali Kipr Türk Cümhuriyyətindəki Doğu Ağdəniz Universiteti arasında qarşılıqlı müqavilələr imzalanmış, həmin ali təhsil ocaqları ilə görüşlər, müəllim, tələbə və təcrübə mübadiləsi həyata keçirilir. Ali təhsil ocağının Ukrayna Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Xarkov Universiteti, Türkiyə Respublikasının Kocaeli Universiteti, Qars Qafqaz Universiteti, Kırşehir Ahı Evran Universiteti, İngiltərənin London Riyaziyyatçılar Birliyi, Qazaxıstan Respublikasının Almatı Milli Universiteti ilə elm və təhsil əlaqələri vardır. Naxçıvan Müəllimlər İnstitutu beynəlxalq simpoziumların təşkilində və keçirilməsi sahəsində də bir çox universitetlərlə qarşılıqlı əməkdaşlıq edir. Ümumiyyətlə, bu institutda tələbələrin yüksək səviyyədə ali təhsil alması, geniş bilik və dünyagörüşü qazanması üçün hər cür şərait mövcuddur. Kollektivimizin əsas amalı tədris keyfiyyətinin üstün olmasıdır. İnstitutun özfəaliyyət kollektivi mədəni mühitin inkişafına uğurla xidmət edir. Eyni zamanda institutda fəaliyyət göstərən "Mənəviyyat" diskussiya klubu tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri və psixoloji cəhətdən həyata hazırlanmaları baxımından olduqca əhəmiyyətlidir.

"İnstitutumuz cəmiyyət üçün gərəkli vətəndaş yetişdirən ali təhsil müəssisəsidir. Məqsədimiz tələbələri gələcəyin əsl vətəndaşı kimi hərtərəfli inkişaf etdirmək, kadr kimi hazırlamaqdır" , – deyən rektor vurğuladı ki, bundan sonra da tələbələrin bilik və bacarığının artırılmasına, yüksək və keyfiyyətli kadr kimi hazırlanmasına, cəmiyyətə hərtərəfli inkişaf etmiş vətəndaş kimi təqdim edilməsinə çalışacağıq. Hərtərəfli biliyə malik intellektli gənclər yetişdirmək, onları yetkin şəxsiyyət kimi cəmiyyətə təqdim etmək hər bir ali təhsil müəssisəsinin əsas vəzifələrindəndir. Bağban bəsləyib yetişdirdiyi ağacın saf meyvəsinə sevindiyi kimi, müəllim də yetirdiyi intellektli, savadlı tələbələrin uğurlarına sevinir, onlarla fəxr edir. Naxçıvan Müəllimlər İnstitutunun müəllim kollektivi də ötən illər ərzində bir çox tələbələrimizin əldə etdiyi yaradıcılıq uğurlarına sevinmişdir. İnstitutumuzda aparılan maarifləndirici tədbirlərin nəticəsidir ki, tələbələrimiz son vaxtlar dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən beynəlxalq tələbə assosiasiyaları ilə əlaqələr qurur, forumların iştirakçıları olurlar.

Kitab yarandığı gündən insanların dostu, yoldaşı, məsləhətçisi, bilik, ilham və xoşbəxtlik mənbəyi olmuşdur. Müxtəlif tarixi dövrlərdə insanlar kitab vasitəsilə həyatı öyrənmiş, təhsil almış, təbiətin və cəmiyyətin qanunauyğunluqlarını öyrənərək dərk etmiş, öz mənəvi aləmlərini zənginləşdirmiş və mədəni səviyyələrini yüksəltmişlər. Qeyd edək ki, Naxçıvan Müəllimlər İnstitutunda zəngin kitabxana fəaliyyət göstərir. 33 minə yaxın kitab fonduna malik olan kitabxana son illərdə nəşr olunan tədris-metodik, elmi və bədii ədəbiyyatlarla zənginləşdirilmiş və elektron kataloq yaradılmışdır. Hazırda fondda 1500 ədəd elektron kitab vardır. Həmçinin institutun ildə 4 dəfə olmaqla "Xəbərlər" adlı elmi-metodik jurnalı nəşr olunur. Bu günədək jurnalın 32 nömrəsi işıq üzü görmüşdür. İnstitutda müasir avadanlıqlarla təchiz olunmuş Nəşriyyat şöbəsi də fəaliyyət göstərir.

İnstitutun elmi-metodik işlər üzrə prorektoru, dosent Yaqub Məmmədov deyir ki, gələcəyimizin firavan olmasını istəyiriksə, vaxt itirmədən elmə və fundamental elmi tədqiqatlara diqqəti artırmalı, sözün əsl mənasında, sağlam elmi mühit formalaşdırmağın qeydinə qalmalıyıq. Azərbaycandakı mövcud elmi ənənənin qorunub saxlanılmasını və inkişaf etdirilməsini gündəlik fəaliyyətimizin əsas devizinə çevirməliyik. Bu ali məktəbdə fəaliyyət göstərən alimlərimiz istedadlı gənclərə daim diqqət və qayğı göstərməli, elmdə varislik prinsipinə əməlləri ilə sədaqət nümayiş etdirməlidirlər. Elmi tədqiqata həvəsi və qabiliyyəti olan gənclərimiz isə, öz növbəsində, onlara bəxş edilmiş istedada arxa çevirməməli, fədakarlıqdan boyun qaçırmamalıdırlar.

Təsadüfi deyil ki, son illərdə institut əməkdaşları elmi araşdırmalar sahəsində də bir sıra uğurlar əldə etmiş, yeni elmi əsərlər yazılmışdır. Elmi nailiyyətlərin istehsalatda tətbiqi ilə bağlı filologiya elmləri doktoru, professor Akif İmanlının "Uşaqların körpəlik dövründə tərbiyəvi iş və nitq inkişafı məsələləri", professor Oruc Həsənlinin "Məktəb psixoloqunun stolüstü kitabı", filologiya üzrə fəlsəfə doktoru Həsənəli Eyvazlı və Tamara Baxşəliyevanın "Milli kurikulum yeni təlim metodlarında" adlı dərs vəsaitləri, metodik vəsaitlər və digər elmi ədəbiyyatlar hazırlanaraq Naxçıvan Muxtar Respublikasının şəhər və rayon təhsil şöbələrinə paylanmışdır. İnstitutda elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Belə ki, son beş ildə institut əməkdaşlarından 4 nəfəri elmlər doktoru, 10 nəfəri isə fəlsəfə doktoru dissertasiyaları müdafiə etmişdir. Eyni zamanda müəllim kollektivinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, professor-müəllim heyətindən iki nəfəri Azərbaycan Respublikasının əməkdar müəllimi, 9 nəfəri Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, 1 nəfəri Naxçıvan Muxtar Respublikasının əməkdar həkimi, 1 nəfəri isə Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisidir. 2 nəfər "Tərəqqi" medalına, 3 nəfər isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülmüşdür.

***Bir institutun timsalında aparılan müşahidələr belə deməyə əsas verir ki, son illərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsil sistemində şəffaflığın təmin edilməsi, müasir idarəetmə modelinin tətbiqi, keyfiyyətin təmin olunması, kadr potensialının gücləndirilməsi öz nəticələrini göstərməkdə, ali təhsil ocaqları ən yüksək səviyyədə gənc nəslə öz töhfələrini verməkdədirlər. Bu da onu göstərir ki, gələcəyimiz savadlı, dünyagörüşlü, hərtərəfli biliyə malik gənclərin əlində olacaqdır.***

**Sona MİRZƏYEVA**

---

***Azərbaycanın sosial-iqtisadi həyatının əsl inkişafının təmin edilməsi ölkəmiz müstəqillik əldə etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin milli inkişaf strategiyasının və onun icrası sahəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi islahatların məntiqi nəticəsidir.***

# Sığorta-pensiya sistemində aparılan islahatlar sosial rifahın yüksəlməsinə xidmət edir

Azərbaycanda qısa müddət ərzində yeni iqtisadi sistemin qurulmasına xidmət edən ciddi islahatların həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsinin başlıca istiqamətlərindəndir. Ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində sığorta-pensiya sistemində aparılan köklü islahatlar da bu qəbildəndir.

Əhalinin sosial müdafiəsinin bazar iqtisadiyyatı mühitinə uyğunlaşdırılaraq yenidən qurulması, beynəlxalq təcrübəyə əsaslanmaqla pensiya sistemində islahatların aparılması öz başlanğıcını 2001-2005-ci illəri əhatə edən "Azərbaycan Respublikasında Pensiya İslahatları Konsepsiyası"ndan götürmüşdür. Konsepsiya islahatının mahiyyətini təşkil edən sığorta-pensiya və sosial yardım sistemlərinin bir-birindən ayrılması sığorta münasibətlərinə əsaslanan pensiya sisteminin qurulması məqsədini daşıyırdı. 2001-2005-ci illərdə konsepsiyanın reallaşdırılması istiqamətində ciddi addımlar atılmış, əhaliyə pensiya və müavinətlərin ödənilməsi və digər sosial ödənişlər üzrə xərclərin, pensiyaların orta və minimum məbləğlərinin hər il artımı müşahidə olunmuş, bu sahədə köklü dəyişikliklər baş vermişdir. Konsepsiyanın qarşıya qoyduğu məqsədlərdən biri də ölkədə vahid sığorta-pensiya orqanının təşkili, sosial sığorta, fərdi uçot və pensiya təminatı funksiyalarının həmin orqanda mərkəzləşdirilməsi idi.

"Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Qanunun tətbiq edilməsi ilə ölkədə məcburi dövlət sosial sığorta sistemində fərdi uçotun əsası qoyulmuş və onun həyata keçirilməsinə başlanılmışdır.

2006-cı il yanvar ayının 1-dən "Əmək pensiyaları haqqında" Qanunun qüvvəyə minməsi ilə ölkəmizdə yeni sığorta-pensiya sisteminin tətbiqinə başlanmışdır. Bu gün ölkəmizdə sığorta-pensiya sistemi "Sosial sığorta haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. Yeni sistem, ilk növbədə, sığortaolunanlar üçün fərdi hesabların açılmasını, ödənilən sığorta haqlarının həmin hesablar üzrə fərdi uçotunun qurulmasını, vətəndaşların pensiya təminatının bu uçotun məlumatlarına əsasən aparılmasını nəzərdə tutur. Fərdi uçotun tətbiqi sığortaolunanların ödədikləri sığorta haqları ilə onlara ödəniləcək pensiyaların məbləği arasında əlaqənin yaradılmasına imkan verir.

Sığorta-pensiya sisteminin özözünü tənzimləyən bir sistem kimi inkişafına nail olmaq üçün qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nda pensiya təminatında sığorta prinsiplərinin gücləndirilməsi, onun inkişaf istiqamətlərinin aktual hesablamalar əsasında müəyyən olunması, dayanıqlı və dinamik inkişafa nail olunması, vətəndaşların pensiya təminatının daha da təkmilləşdirilməsi üçün əsas məqsəd və vəzifələr müəyyən edilmişdir. Dövlət proqramı çərçivəsində "Əmək pensiyaları haqqında" Qanuna əlavə və dəyişikliklər edilmişdir. Bu dəyişikliklərə əsasən, "Əmək pensiyaları haqqında" Qanun qüvvəyə mindiyi günədək qazanılmış pensiya hüquqlarının müəyyənləşdirilməsində əməkhaqqına istinad aradan qaldırılmış, hesablamaların vahid staj göstəricisinə əsasən aparılması həyata keçirilmişdir. Yeni qaydanın tətbiqi bütün sığortaolunanlar üzrə 2006-cı ilin 1 yanvarınadək qazanılmış pensiya hüquqlarının ilkin pensiya kapitalı şəklində fərdi hesablarda qeydiyyatının aparılmasına imkan verir.

2010-cu il yanvar ayının 1-dən qüvvəyə minmiş "Əmək pensiyaları haqqında" Qanuna edilmiş əlavə və dəyişikliklər yeni təyin olunmuş pensiyaların məbləğinə əhəmiyyətli dərəcədə təsir göstərməklə yanaşı, aparılan islahatların ölkəmizdə əhalinin sosial müdafiəsinin daim diqqət mərkəzində olduğunu təsdiqləyir. Üçpilləli pensiya təminatı müəyyənləşdirilmiş, əvvəlki sistemlə pensiyaya çıxmış insanların da bu sistemlə əhatə olunması, onların pensiya hüquqlarının qorunmasında sosial ədalətin gözlənilməsi və heç bir məhdudiyyət qoyulmadan yeni şəraitə inteqrasiyası tamamlanmış, işləyən pensiyaçıya yaşa görə əmək pensiyasının 50 faiz həcmində ödənilməsi ləğv olunmuş və onlar öz pensiyalarını tam məbləğdə almağa başlamışlar.

Bütövlükdə, pensiyaların artımı mexanizminin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması mövcud maliyyə imkanlarının pensiyaçılar arasında daha ədalətli bölgüsünə və pensiya məbləğlərinin indeksləşdirilməsi vasitəsilə inflyasiyadan qorunmasına şərait yaratmışdır. Eyni zamanda vətəndaşların pensiya hüquqlarının fərdi uçotun məlumatları əsasında müəyyənləşdirilməsi və beləliklə, pensiya təminatında sığorta prinsiplərinə keçid təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və onun yerli orqanlarının maddi-texniki bazası tamamilə yenidən qurulmuş, bütün şöbələrdə müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri yaradılmışdır. Məcburi dövlət sosial sığorta haqlarının tam daxil olması, daxilolmalarda "onlayn" ödəmə sisteminin tətbiqi, ödəmələrin internet vasitəsilə plastik kartlarla aparılması, daxil olan vəsaitlərin elektron fərdi uçotunun aparılması, vətəndaşların fərdi uçot məlumatları əsasında onlara qanuni hüquqları yarandıqda pensiya təyin edilməsi və təyin olunmuş pensiyaların müasir ödəniş vasitəsi – plastik kartlar vasitəsilə pensiyaçılara vaxtında çatdırılması və sığorta-pensiya sisteminin digər funksiyaları uğurla həyata keçirilir. Həmin funksiyaların icrasına Dövlət Sosial Müdafiə Fondunun şöbələri tərəfindən ciddi nəzarət edilir. Hazırda isə Naxçıvan Muxtar Respublikasında avtomatlaşdırılmış pensiya təyinatının tətbiqi ilə əlaqədar hazırlıq işləri davam etdirilir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən sığortaedən və sığortaolunanlara 22 növ elektron xidmət göstərilməsi nəzərdə tutulur.

Göründüyü kimi, ölkəmizdə və muxtar respublikamızda sığorta-pensiya sisteminin yüksək səviyyədə qurulması əhalinin bu sistemin üstünlüklərindən maksimum yararlanmasına şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Təbiət ən yaxşı sənət incisi, ən yaxşı sənətkarsa heçdən nəsə yaradandır



*"Təbiət ən yaxşı sənətkardır" deyirlər. Çünki ondakı cansız daş parçası da, yamyaşıl, naxış-naxış yarpaqlardan süzülüb düşən bir yağış damlası da, bir ağac tikəsi də böyük ustalıqla hazırlanmış sənət incisi kimi insanoğlunu daim valeh etmişdir. Budəfəki yazımız da məhz bu incəlikləri dərindən duyan, quru ağacdan sənət naminə ustalıqla istifadə etməyi bacaran bir xalq sənətkarı, ağacoyma ustası Akif Həsənov haqqındadır. Qeyd edək ki, o, bu il mart ayında "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunub.*

Onunla geniş, işıqlı, ağac ətri duyulan emalatxanasında görüşürük. Emalatxanada tanınmış Azərbaycan sənətkarı Vaqif Mustafazadənin əsərlərindən biri səslənir. Elə Akif ustaya da ilk sualım "Niyə Vaqif Mustafazadə, niyə caz?" olur. Cavab maraqlıdır: "Bu bəstəkar Azərbaycan cazının tamamilə yeni, müasir üslubda inkişafına təkan verib. O, Azərbaycan muğamı əsasında caz sənətində tamamilə fərqli cərəyan yaradıb və muğam əsasında bütöv bir caz cərəyanının təməlini qoyub. Vaqif Mustafazadənin əsərlərini dinləyəndə sanki Naxçıvanın buz bulaqlı yaylaqlarını, dünyaya göz açdığım Sarvanlar məhəlləsini, altında oynadığım, barından doya-doya yediyim tut ağacını, taxtın üstündə süfrə açıb nəvələrini başına yığan nənəmi xatırlayıram. Bəlkə də, qəribə qarşılayarsınız, amma deməliyəm ki, onun musiqisində elə bir ecazkarlıq var ki, dinləyəndə burnuma təzə təndir lavaşının ətri gəlir. Yəni onun musiqiləri keçmişlə müasirliyin vəhdətindən yaranıb; bu həqiqəti isə heç cür yaddaşdan silib atmaq olmaz.

***– "Ağaclar və musiqi". Deyəsən, onların vəhdəti sizə nəyisə axtarıb-tapmaqda, ortaya çıxarmaqda kömək edir.***

– Hə, elədir. Bəzən yeni bir naxış, yeni bir fiqur ortaya çıxarmaq üçün saatlarla musiqi dinləyirəm. Və nəticə yaxşı olur. Ancaq əsas eskizlərin yaranmasında təkcə musiqinin yox, düşüncənin də çox rolu var. Çünki ağaclarla işləmək, onlardan hansısa bir sənət nümunəsi ərsəyə gətirmək o qədər də asan iş deyil. Necə deyərlər, yüz ölçüb bir biçməlisən. Təbiət abidəsi ağac kimi mülayim, həssas, səxavətli, "sözəbaxan" digər material yoxdur. Ağacoyma sənət növünə ömrünü həsr edənlər üçün ağac həm də bənzərsiz, həmişəyaşar materialdır. Ona görə ki, belə sənətkarın əlində tutduğu ağac parçasının qismətinə sobada yanmaq və ya kağız parçasına çevrilmək yox, böyük sərgilərdə nümayiş olunmaq, qiymətli bir nümunə kimi birinə hədiyyə edilmək düşür. Onun üzərindəki illərin buraxdığı izlərdən belə, naxış kimi istifadə etmək olar. Əsas odur ki, bu incəlikləri duyub tətbiq etməyi bacarasan.

***– Bu sənət növünə sizdə maraq haradan yaranıb?***

– Bu sənətlə tanışlığım 14 yaşımdan başlayıb. O zaman hər kəsin "Aviamodel" kimi tanıdığı bir məktəbdənkənar müəssisə var idi. Elə orada bu sənətin sirlərinə yiyələnməyə başlamışam. Ağacdan müxtəlif məmulatlar hazırlamağa böyük həvəsim olub. İlk vaxtlar taxtadan müxtəlif fiqurlar, təyyarə modelləri düzəltməyə başladım. Sonralar isə yavaş-yavaş eskizlər cızma-qara edirdim və bu eskizlər əsasında daha iri əsərlər ortaya çıxırdı. Get-gedə anladım ki, məni ağaclarla məşğul olmağa hansısa bir ilahi qüvvə sövq edir... Ağacoyma mənim üçün məşğuliyyət yox, hər şeydir.

***– Sərginizdə intarsiya, oyma, şəbəkə və xatəmkarlıq üsulu ilə hazırlanmış məmulatlar var. Bu haqda nə deyə bilərsiniz?***

– İntarsiya nazik ağac lövhəciklərindən, yonqarlarından yığılmış mozaikadır. Bu mozaikalar müxtəlifölçülü və müxtəlif növ ağacların bir-birinə keçirilməsi, yapışdırılması ilə quraşdırılır. İntarsiya texnikası ilə döşəmələr, divarlar, masalar və digər mebellər bəzədilir. Bu sənət orta əsrlər zamanında Misirdə yaranıb. İntarsiya texnikası Siciliya və Əndəlus vasitəsilə xristian Avropasına yayılana qədər artıq İslam dininin yayıldığı Şimali Afrikada xeyli təkmilləşmişdi. Daha sonra bu sənət Yunanıstanda, İtaliyada, Almaniyada, Hollandiyada, İngiltərədə geniş yayılmağa başladı. İntarsiyanın da öz növləri var. Mozaika hissələri qabarıq və ya müstəvi ilə eyni səviyyədə qalan intarsiyalar mövcuddur. Qeyd edim ki, intarsiya, oyma və şəbəkə üslubu ilə işləyəndə əlavə məmulatlar lazım olmur. Ancaq xatəmkarlıqda müxtəlif materiallardan istifadə etmək lazım gəlir. Latın dilində "təbəqə və qabıqla, mərmərlə örtürəm" mənasını verən xatəmkarlıq (inkrustasiya) dekorativ-tətbiqi sə-



nətin özünəməxsus bir növü olmaqla əşyaların bəzədilməsində, onlara estetik görkəm verilməsində istifadə olunur. Bu prosesdə hər hansı səthə əlavə olunan – oyulub yerləşdirilən naxış və təsvirlər mərmər, keramika, metal, ağac, sədəf, mina və digər materialdan olmaqla rənginə, digər xüsusiyyətlərinə görə fərqlənir. Yəni bu iş əlavə sərmayə və vaxt tələb edir. Çalışıram ki, əsərlərimdə yuxarıda sadalanan üsullara geniş yer verim.

***– Bu sənətlə məşğul olmaq, uğur qazanmaq üçün insanda hansı keyfiyyətlər olmalıdır?***

– Bu işdə istedad, təmkin, böyük zəhmət, dəqiqlik, incəlik tələb olunur. Bunlar kompleks şəkildə olanda yaxşı bir əsər meydana gəlir. Etiraf etməliyəm ki, çətin sənətdir. Burada xəttatlıq, nəqqaşlıq, xarratlıq, rəssamlıq kimi incəsənət növlərindən, müxtəlif peşələrdən, necə deyərlər, baş çıxarmalısan. Məsələn, ağac üzərində yaxşı bir oyma naxış çıxarmaq istəyirsənsə, onun eskizlərini də yaxşı çıxarmalısan, ölçülərini yaxşı bilməlisən.

***– Sizin yolunuzu davam etdirən, yaxud bu sənəti öyrənmək istəyənlər varmı?***

– Bu sənətlə oğlum məşğul olur və hal-hazırda mebel istehsal edən müəssisələrdən birində işləyir. Güclü təxəyyülü olduğunu bilirəm və onun üçün də bildiklərimi ona öyrətməyə çalışıram. Dövlətimizin dəstəyi ilə yaradılan emalatxanamda onun üçün kiçik bir guşə də ayırmışam. Böyük zəhmət tələb etməsinə baxmayaraq, bu sənətlə məşğul olmaq istəyənlər çoxdur və onların sayı kifayət qədərdir. Bu da onu deməyə əsas verir ki, bu sənət növü gələcəkdə geniş yayılacaq.

***– Naxçıvan gündən-günə gözəlləşir, inkişaf edir. Bir sənətkar olaraq bu sənət növündə doğma diyarımızın simvoluna çevrilə biləcək bir nümunə yaratmağı düşünürsünüzmü? Yol kənarında qurumuş bir ağacı sizə versələr və "buyur, Akif usta, məharətini göstər", – desələr necə əsər yaratmaq istərdiniz?***

– Bu barədə təklif olsaydı, məmnuniyyətlə razılıq verərdim. Simvol üçün mövzu tapmaqda da çətinlik çəkməzdim. Çünki yaşı minillərlə ölçülən Naxçıvanımızın bu günü ürəkaçan mövzularla doludur. Bu mövzulardan yola çıxıb ən gözəl simvollar yaratmaq olar. Və bu simvollar muxtar respublikada ağacoyma sənətinə, ümumilikdə isə xalq sənətkarlığına göstərilən dövlət qayğısının bəhrələrindən xəbər verər.

***– Rəssam qarşısına gözəl mənzərə çıxanda fırçasının, kətanının və molbertinin yanında olmamasından heyifsilənir. Bəs siz qarşınıza quru bir ağac çıxanda nədən heyifsilənirsiniz?***

– Heyifsilənirəm ki, budaqlarında minbir naxış olan bu ağac kəsilib doğranacaq və ya yandırılacaq. Onda rəssamın fırça yadına düşdüyü kimi, mənim də işkənə yadıma düşür.

***– Deyirlər ki, hər bir insanın taleyini ilahi fərqli rəngdə işıqlandırıb. Və hər bir rəngdə bir məna, bir gələcək gizlədilib. Siz taleyinizə hansı rəngdə işığın düşməsini istərdiniz?***

– Bənövşəyi. Mən istərdim ki, taleyimə bənövşəyi rəngdə işıq düşsün. Elə evimin pəncərələrinin şüşəsi də bənövşəyi rəngdə olsun.

***– Bəs mənası?***

– Mənası məndə qalsın.

*– O zaman mənə sizinlə sağollaşmaq qalır.*

***Müsahibəni apardı:***

**Səbuhi HÜSEYNOV**

# Yubiley tədbiri keçirilmişdir

Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbdə Azərbaycan ictimai fikir tarixinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin anadan olmasının 150 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə məktəbin direktoru Məmmədəli Rüstəmov açaraq qeyd edib ki, 2014-cü il yanvar ayının 21-də Ə.Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sərəncam imzalayıb.

Sonra məktəbin müəllimlərindən Mirzalı Tağıyev, İlahə Hüseynova, Validə Əliyeva , Könül Novruzova, Səadət Hüseynova və başqaları çıxış edərək bildiriblər ki, türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən Əli bəy Hüseynzadə zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi ilə Azərbaycan maarifçiliyinə qiymətli töhfələr verib.

Tədbirin sonunda Əli bəy Hüseynzadə haqqında qəzet və jurnallarda dərc olunmuş məqalələr, həmçinin kitablardan ibarət sərgiyə baxış olub.

**Türkan HÜSEYNLİ**

# 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü qeyd olunub

*A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü ilə əlaqədar kitabxananın oxu zalında məktəbli oxucuların iştirakı ilə "Oxucu söz istəyir" adlı oxucu konfransı keçirmişdir.*

Tədbir başlanmazdan əvvəl məktəbli oxucular kitabxananın foyesində dünya və Azərbaycan ədəbiyyatı nümunələrinin sərgiləndiyi sərgiyə baxmışlar.

Tədbiri giriş sözü ilə kitabxananın direktoru Kamal Axundov açmışdır. O, 2 aprel tarixinin məşhur Danimarka yazıçısı Hans Xristian Andersen günü ilə bağlı olduğunu, Andersenin 150-yə yaxın uşaqlar üçün nağıllar yazdığını bildirmiş və qeyd etmişdir ki, Andersenin 100 il bundan əvvəl yazdığı nağıllar bu gün də uşaqlar tərəfindən sevilə-sevilə oxunur.

Kitabxananın şöbə müdiri Şəfa Orucova çıxış edərək dünya və uşaq ədəbiyyatının uşaqların tərbiyəsində rolundan danışmışdır.

Sonra məktəbliləri maraqlandıran suallar cavablandırılmışdır.

Qeyd edək ki, analoji tədbir Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdə və 10 nömrəli uşaq bağçasında da keçirilmişdir.

**S.MİRZƏYEVA**

# Heydər Əliyev adına Hərbi Liseyə

## *2014-2015-ci tədris ilində namizəd qəbulu qaydaları*

**Ümumi müddəalar:**

*Təlim dili: Azərbaycan dili*

*Təhsil forması: əyani*

*Təhsil müddəti: 3 il*

Yaş həddi: 15 sentyabr 2014-cü il tarixədək 14 yaşı taman olan və 16 yaşı tamam olmayan (15.09.1998-15.09.2000-ci illər təvəllüdlü) orta ümumtəhsil məktəbinin 8-ci sinfini bitirmiş oğlanlar qəbul edilirlər.

Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmaq arzusunda olan namizədlər 30.04.2014-cü il tarixədək Hərbi Lisey rəisinin adına ərizə ilə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:**

*1. Tərcümeyi-hal*

*2. Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin surəti (notarius tərəfindən təsdiq olunmuş)*

*3. Xasiyyətnamə*

*4. Oxuduğu sinfin 1-ci yarımilin qiymət cədvəli*

*5. Qeydiyyat (yaşayış) yerindən ailə tərkibi haqqında arayış*

*6. 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, 3x4 sm. ölçüdə)*

*7. Valideynlərin və ya onları əvəz edən şəxslərin dövlət notariusunda təsdiq olunmuş razılıq ərizələri*

*8. Burunətrafı boşluqların rentgenoqrafiyası*

*9. Döş qəfəsinin rentgenoqrafiyası*

*10. Sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ*

*11. Qanın ümumi analizi, qan qrupu və rezus faktor*

*12. Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri*

*13. Qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri*

*14. Sidiyin ümumi analizi*

*15. Nəcisdə helmintlərin yumurtalarının müayinəsinə aid tibbi sənəd*

*16. Dizenteriya qrupuna aid müayinə, əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə*

*17. Psixonevroloji, Narkoloji, Vərəm, Dəri-Zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar*

*18. Xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olması haqqında məlumatlar, ambulator xəstənin tibb kartası (keçirilmiş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibb kartasından çıxarışlar, rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibbi kartası – forma № 26/U).*

Naxçıvan Muxtar Respublikasında yaşayan və hərbi tibb fakültəsinə, Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olmaq arzusunda olan namizədlər Heydər Əliyev adına Hərbi Liseyə müraciət etməlidirlər.

Şəxsiyyət vəsiqəsi (doğum haqqında şəhadətnamə) namizəd tərəfindən şəxsən təqdim olunur.

***Əlaqə telefonları: (036) 544-00-15, 544-00-16***

### *Hərbi liseyə qəbul 2 mərhələdə keçirilir*

**1-ci mərhələdə** bütün hərbi təhsil müəssisələrinə qəbul olmaq istəyən namizədlər Heydər Əliyev adına Hərbi Liseydə hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlərə dövlət test imtahanlarına buraxılış vərəqəsi verilir.

Hərbi həkim komissiyasının tarixi sənəd qəbulu vaxtı bildiriləcək.

**2-ci mərhələ** Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təşkil edilir.

Abituriyentlər I qrup üzrə Azərbaycan dili, riyaziyyat, fizika, kimya fənlərindən Azərbaycan dilində test imtahanı verirlər.

Namizədlər Heydər Əliyev adına Hərbi Liseyə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təqdim olunmuş siyahılar əsasında qəbul edilirlər.

İmtahanın tarixi əlavə olaraq bildiriləcək.

### *İtmişdir*

Babək rayonunun Bulqan kəndində yaşamış Əkbərov Nurəddin İzzət oğlunun adına olan JN-903A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "59-cu" məhəllə 7/8B-də Əliyeva İlahə Ağadadaş qızına məxsus torpağın Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş EH-0030676 nömrəli çıxarış və AA-007612 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "56-cı" məhəllə, ev 25-də yaşayan Babayev Asif Səttar oğlunun adına olan 12365 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun ümumi işlər üzrə direktor müavini Cabbar Nəcəfova, əzizi
**FATİMƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Təranə Mehdiyevaya, nənəsi
**SƏKİNƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 303